**Muxtar Babayev İslamabadda Azərbaycan parkını ziyarət edib**

Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev İslamabadda Azərbaycan parkına baş çəkib.

AZƏRTAC xəbər verir ki, nazir parkda ağacəkmə mərasimində iştirak edib. O, Pakistan Baş nazirinin İqlim Dəyişikliyi və Ətraf Mühitin Koordinasiyası üzrə koordinatoru Romina Xurşid Alam ilə birlikdə ağac əkib. Mərasimdə Pakistan hökumətinin digər yüksəkvəzifəli şəxsləri və Azərbaycanın Pakistandakı səfiri Xəzər Fərhadov da iştirak edib.

Muxtar Babayev media nümayəndələri ilə görüşündə səfəri çərçivəsində Pakistanın Prezidenti və Baş naziri ilə görüşündən danışıb, bu ilin sonunda Bakıda keçiriləcək COP29-la məsələləri müzakirə etdiyini bildirib. Təbiəti qorumağın, iqlim məsələlərinin və iqlim gündəliyinin həlli üçün birgə fəaliyyətin zəruriliyini vurğulayan nazir Pakistanda olmaqdan böyük məmnunluq duyduğunu ifadə edib.

**AZƏRTAC**
**2024, 11 may**